# Çiçək ətirli bahar gəlir



**Hər şeyə hakim olan zaman ayaq saxlamadan, hiss olunmadan, heç kimlə məsləhətləşmədən öz axarı ilə gəlib keçir. Ondan geriyə günlər, həftələr, aylar, illər və bir də acılı-şirinli xatirələr qalır. Zaman keçdikcə əsrləri ilmə-ilmə üyüdüb xırdalayan aylar, illər üst-üstə yığılır. Tarixin yükü yavaş-yavaş artır, ağırlaşır, qalınlaşır.**

Üst-üstə qalaqlanan illərlə bərabər, fəsillər də dəyişir. Hər dəyişən il, hər yenilənən fəsil yaşımızın üstünə yaş gətirir. Saçımıza, çöhrəmizə əl gəzdirir. İllər, fəsillər dəyişdikcə sanki dünyamız da yenilənib gözəlləşir.

Mart ayının ortalarıdır. Hərəsi bizdə bir cür xoş ovqat oyadan fəsillərin bir-birini əvəz edəcəyi günləri sayırıq. Son həftələri yağışlı, qarlı, şaxtalı və sonra da günəşli keçən qış fəslinin son günlərini yaşayırıq. Günlər arxada qaldıqca havadan çiçək ətirli, gül qoxulu baharın ılıq nəfəsi duyulur. Yurdumuza, el-obamıza yeni gün gəlir. Ruhumuz, qəlbimiz, könlümüz çağlayan bu ılıqlıq bulağında yuyulduqca yuyulur. Dünənə qədər soyuğa bürünmüş havalar içində misqal-misqal istilik hiss edərək qalın kürkünü çıxarır. Əvvəlki günlərə baxanda havada istilik duyulur. Təbiət əlini bu istilikdə qızdırır. Göy üzündən yer üzünə boylanan Günəş də əvvəlki günlərdən daha parlaq və daha gülərüz görünür.

Havalar isindikcə müharibələrdən təngə gəlmiş dünyamız silkələnib qışın soyuğu, şaxtası ilə vidalaşa-vidalaşa yaşıllığa bürünür. Həmişə şirin, dadlı, ləzzətli, rənbərəng meyvələr gətirən ağacların bir-birinə bənzəməyən irili-xırdalı budaqlarında yavaş-yavaş tumurcuqlar muncuq kimi sıralanıb düzülür. İnsanların üzü gülür, ürəyi açılır, qəlbi cuşa gəlir, sevinir. Bu anlarda sanki göylərin dərinliyindən, sonsuzluğundan yer üzünə bərəkət enir. Təbiət xoşbəxtlikdən, bəxtəvərlikdən don geyinir.

Günlər ötüb keçdikcə, dünənə çevrildikcə bahar qış üzərində təntənəli zəfər çalır. Onun xoş müjdəli zəfəri hər yerə səs salır, çiçək ətirli, gül qoxulu baharın qədəmlərinin səsi eşidilir. Onun gəlişindən dünyamız sevincə batır, yavaş-yavaş kədərdən, qəmdən uzaqlaşır.

Xoş gəlirsən, çiçək ətirli bahar! Xoş gəlirsən, gül çətirli Novruz! Xoş gəlirsən, xoş arzulu, ülvi diləkli, barlı-bərəkəli fəsil! Tez gəl, dünyamızı ağ çiçəklərə, rəngbərəng güllərə bürü! Qoy dünyamız həmişə çiçək ətirli, gül çətirli olsun! Qoy insanlar bütün ömürləri boyu bax beləcə bəxtəvər həyat yaşasınlar. Çiçək ətirli baharın qoxusunu ömürlərinin hər günündə, hər anında hiss etsinlər. Gündən-günə gözəlləşən Azərbaycanı sevsinlər, yaşadıqca yaşasınlar!

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 18 mart (№ 59).- S.11.